Qəşəm İsabəyli

# Sarı balıq, fil xortumu və xidmətçi qadın



(nağıl)

Məktəbin birinci mərtəbəsinə akvarium qoymuşdular. Dırnaq boydadan tutmuş barmaq boyda-yacan hərəsi bir rəngdə yelli-yelpikli su pəriləri üzürdü içində. Ona görə "su pəriləri" deyirəm ki, ağız dolusu "balıq" deyə bilmirəm. Axı "balıq" deyəndə ilkin olaraq yada "yemək" düşür. Bunlar da ki, yeməklik deyildi.

Zəng eşiyə vurulan kimi uşaqlar qaçıb yığışdılar akvariumun başına. Qəşəmin dili dinc durmadı:

-Kim deyər, bunların adı nədi?

Dənizin sifətinə işıq düşdü:

-Görünən odur ki... balıqdı.

Qəşəm yenidən dil boğaza qoymadı:

-Bəs görünməyən nədi?

Dənizin üzü bir az da işıqlandı:

-İnək.

Uşaqlar bir-birinə qarışdı.

Hacı başını irəli uzadıb Qəşəmə baxdı:

-Özün de.

-Bunların adı rəngli karandaşdı.

Yenidən uşaqlar bir-birinə qarışdı.

Qəşəmin üzü kölgələndi:

-Çox gülməlidi?!

Bu dəfə də Hacı dilini dinc qoymadı:

-Olmasaydı, gülməzdik ki?!

-Bunlarla şəkil çəkə bilərsən, ay Qəşəm? - Dəniz soruşdu.

-Özləri çəkir da...

-Necə?

-Durna kimi dal-dalı düzülüb, yellənə-yellənə üzür? Üzür. Topasına daş atılmış sərçə kimi pırradan uçur? Uçur. Baş-başa verib, qayıq kimi yırğalanır? Yırğalanır. Bəs bunlar nədi?!

-Bəxtəvər başlarına! - Hacı dedi.

-Niyə?

-Ona görə ki, "Riyaziyyat" keçmirlər.

Uşaqlar bir-birinə qarışdı.

Bu dəfə də Hacının üzü kölgələndi:

-Çox gülməlidi?!

Qəşəm əlüstü dilləndi:

-Olmasaydı, gülməzdik ki!

Dənizin sifəti yenidən işıqlandı:

-Niyə bəxtəvərdi bunlar, ay Hacı?

-Ona görə ki, akvariumda yaşayırlar. Heç nədən qorxuları yoxdu.

Qəşəm etiraz elədi:

-Nə olsun ki?!

Hacı öz fikrindən geri çəkilmədi:

-"Nə olsun ki?!" nə deməkdi?

-Akvarium qəfəsdi. Qəfəs də azadlıq deyil!

-Kefləri istədiyi kimi belədən-belə üzmələri azadlıq deyil, nədi bəs?!

-Balıqların azadlığı dənizdi.

Dəniz sinəsini irəli verdi:

-Yəni... mən?!

-Mən özü dəniz olanları deyirəm.

-Orda balinalar var, ağzını açan kimi bunları udar. Belə azadlıq nəyimə lazımdı?! - Hacı dilləndi.

Qəşəm sözünü sualla bitirdi:

-Qəfəsdə qorxusuz yaşamaq yaxşıdı, yoxsa azadlıqda qorxulu yaşamaq?

Uşaqlar bir-birinə baxdı...

***

Balıqlar bilmirdi ki, uşaqlar nə danışır. Axı onlar da öz aralarında danışırdı.

-Görün nə qədər günəş var! - Sarı balıq suyun üzünə qalxıb, yenidən dərinliyə cumdu. - Özü də hərəsi bir rəngdə - qara, göy, mavi...

-Günəş qırmızı olur axı?! - Dırnaq boyda balıq ağzını açıb-yumdu. - Nəyi tanımasam da Günəşi tanıyıram.

-Odur ey, -Sarı balıq uşaqların gözlərini göstərdi, - baxın...

O dəqiqə balıqlar baş-başa verdi:

-Doğrudan... a... a... a...

Birdən balıqlar diksinib, hərəsi bir yana sıçradı. Akvariuma fil xortumu girirdi. Xidmətçi qadın köhnə suyu dəyişməyə gəlmişdi.

Xortum asta-asta suyu çəkib tökürdü çölə. Qəflətən Sarı balığı su dartıb saldı xortumun içinə. Sarı balıq qaranlıq tunellə bir xeyli gedib, işıqlı dünyaya çıxdı və çıxan kimi də şappıltıyla düşdü gül-çiçək ləkinə. Atılıb-düşüb, çırpınıb, çapalayıb, yoruldu. Başı işə qarışan xidmətçi qadın onu görəndə artıq gec idi:

-Ay yazıq, Allah sənə dil versəydi dünya dağılardı?! Sən lal, mən də kar... - Tez əyilib, Sarı balığı götürdü - aparıb buraxdı akvariuma.

-Az qala ölmüşdüm... - Sarı balıq dərindən nəfəs almaq istədi, ağ ciyərinin gücü çatmadı.

-Hardaydın? - Qara balıq soruşdu.

-Quruda.

-Nə vardı orda?

-Nə olduğunu deyə bilmərəm, amma hava yox idi - ağzımı boş-boşuna açıb-yumurdum. - Sarı balıq bir daha dərindən nəfəs almağa çalışdı. Yenidən ağ ciyərinin gücü çatmadı.

-Orda da bizim kimi balıqlar var?

-Balıqlar olsaydı, hava olardı ki.

Günəşin sarı şüaları akvariuma düşəndə Sarı balıq udqunub, qəflətən arxası üstə çevrildi - qalxıb qarnı yuxarı durdu suyun üzündə. Xırda ləpələr pıçıldaya-pıçıldaya onu götürüb apardı.

Bədəni suda olan Sarı balığın canı qurudaydı. Quruda isə hava yox idi.

Xidmətçi qadın gözlərinin yaşını silirdi.